**UOT 94 «19/…»**

# SSRİ-NİN SÜQUTU PROSESİ HAQQINDA

**A.Ş.ŞAHMURADOV**
***Azərbaycan Dillər Universiteti***
***agil1965@mail.ru***

*XX əsrin 80-ci illərində SSRİ sosial-iqtisadi və siyasi böhrana düçar olmuşdu. 1985-ci ilin martında M.S.Qorbaçov SSRİ-nin rəhbəri seçilmiş və onun volyuntarist siyasəti böhranı daha da dərinləşdirmişdi. İttifaqa daxil olan xalqlar arasında qarşıdurma və ziddiyyətlər təzahür etmiş, bəzi regionlarda silahlı toqquşmalar baş vermişdi. SSRİ-ni xilas etmək üçün M.S.Qorbaçovun irəli sürdüyü Yeni İttifaq Müqaviləsi layihəsi və mühafizəkar qüvvələrin 1991-ci il avqust qiyamı da iflasa uğramışdı. 1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belorusiya liderləri Müstəqil Dövlətlər Birliyinin yarandığını bəyan etmiş və bununla da SSRİ-nin varlığına son qoyulmuşdu.*

**Açar sözlər:** SSRİ, M.S. Qorbaçov, milli münaqişələr, Yeni İttifaq Müqaviləsi, Müstəqil Dövlətlər Birliyi

Dünya kommunzm düşərgəsinin mərkəzi olan SSRİ XX əsrin 80-ci illərində dərin iqtisadi və siyasi böhran mərhələsinə daxil olmuşdu. İdarəetmədə inzibati-amirlik metodlarının tətbiqi, azadfikirliliyə qarşı mübarizə, rəsmi elan olunmuş iqtisadi göstəricilərin əsassız olaraq şişirdilməsi, kölgə iqtisadiyyatının, korrupsiyanın genişlənməsi, hərbi xərclərə iri həcmdə vəsaitlərin ayrılması, həyat səviyyəsinin davamlı olaraq aşağı düşməsi və s. mənfi hallar böhrana qarşı səmərəli mübarizə aparmağa imkan vermirdi. Rəhbərlikdə təmsil olunmuş şəxslərin yaş həddinin yüksək olması, problemlərə çevik reaksiya verə bilməmələri də böhranın dərinləşməsinə səbəb olan amillərdən idi. 1980-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlərinin orta yaş həddi təxminən 75-ə bərabər idi (1, 7).

Təbii ehtiyatların zəngin olmasına baxmayaraq ölkənin iqtisadi göstəriciləri durmadan pisləşir, dövlət mülkiyyətinə əsaslanan planlı iqtisadiyyat şəraitində bazarın tələblərini tam nəzərə almaq mümkün olmurdu. 1970-1985-ci illərdə istər sənayedə, istərsə də kənd təsərrüfatında inkişaf sürəti əhəmiyyətli dərəcədə aşağı düşmüşdü. XX əsrin 60-cı illərinin ikinci yarısında sənayenin orta illik artım sürəti 8,4 %-ə bərabər idisə, 1981-1985-ci illərdə bu göstərici 3,5 %-ə qədər azalmışdı. Eyni dövrdə kənd təsərrüfatında inkişaf sürəti 4,3 %-

dən 1,4 %-ə, iqtisadiyyata kapital qoyuluºunun həcmi isə daha çox, 7,5 %-dən 1,8 %-ə qədər azalmışdı (2, 403 ).

Vəziyyəti ağırlaşdıran amillərdən biri də, demoqrafik vəziyyətin mənfi istiqamətdə dəyişməsi idi. 1960-cı ildən 1970-ci illərin sonuna qədər SSRİ-də yeni doğulanların sayı 25 % azalmış, ölüm halları isə 15 % artmışdı (2, 409). Kəndin perspektiv inkişafı haqqında 1976-cı ildə hazırlanmış və kəndin urbanizasiyasını nəzərdə tutan xüsusi planın icrasına yüz milyardlarla manat yönəldilsə də, əks nəticə əldə olunmuş, minlərlə kənd boşalmış, kəndlilərin şəxsi təsərrüfatları tənəzzülə düçar olmuşdu (3, 197). Sürətlə silahlanma və ona çəkilən xərclərin durmadan artması ölkə iqtisadiyyatı üçün ağır bir yükə çevrilmişdi.

Elmi əsaslandırılmış islahatların aparılmaması bölgə iqtisadiyyatı və korrupsiyanın çiçəklənməsi üçün şərait yaradırdı. Fransız sosioloqu M.Doqanın sözləri ilə desək, korrupsiya öz növbəsində rejimin qeyri-legitimliyini göstərən amildir (4, 151).

Yaranmış problemlərin çoxu SSRİ-də mövcud olan və totalitar xarakter daşıyan siyasi sistemin təbiətindən irəli gəlirdi. Demokratik cəmiyyət üçün xarakterik olan azadfikirlilik, siyasi plüralizm, çoxpartiyalılıq və s. dəyərlərə yer verilmirdi. Kənar təsirlərdən qorumaq məqsədilə cəmiyyətin ətraf aləmdən təcrid olunmasına, qapalılığına xüsusi diqqət yetirilirdi. Həyata keçirilən siyasət, demək olar ki, bir məqsədə, artıq deformasiyaya uğramış, nüfuzunu itirmiş Kommunist Partiyasının idarəetmədəki inhisarçı mövqeyinin qorunub saxlanılmasına xidmət edirdi.

SSRİ-ni süquta aparan səbəblərdən biri də, insanların süuruna hakim kəsilmiş işıqlı və firavan gələcək, kommunizm haqqındakı ideyaların reallıqdan uzaq olması, nəticədə insanların ümidsizliyə qapılması ilə bağlı idi. İnsanların həyat səviyyəsinin getdikcə pisləşdiyi bir şəraitdə kommunizm haqqında fikirlərin səsləndirilməsi cəmiyyətdə artıq narazılıqla qarşılanır, ümidsizliyin daha da artmasına gətirib çıxarırdı. Mövcud rejimdən narazılıq özünü dissident hərəkatında, insanların müxtəlif yollarla ölkəni tərk etməsində göstərirdi.

XX əsrin 70-ci illərindən başlayaraq informasiya-telekommunikasiya sistemlərinin sürətlə inkişaf etməsi qərb demokratiyası, qərb həyat tərzi haqqındakı məlumatların sovet insanına çatdırılması işini asanlaşdırırdı. Xaricdən ötürülən radio dalğalarının qarşısını müxtəlif üsullarla almaq cəhdləri səmərəsiz və mənasız bir işə çevrilirdi. Qərbin çoxşaxəli informasiya hücumu qarşısında gücsüzlük, onun neytrallaşdırılmasının mümkünsüzlüyü son nəticədə sovet siyasi sisteminin iflası üçün zəmin yaradırdı.

SSRİ-nin daxilində yaranmış böhranlı vəziyyət onun beynəlxalq nüfuzuna, beynəlxalq münasibətlər sistemindəki roluna da mənfi təsir göstərirdi. 1979-cu ildə sovet qoşunlarının Əfqanıstana müdaxiləsi dünyada SSRİ-yə olan inamın və etimadın xeyli azalması ilə nəticələnmişdi. XX əsrin 80-ci illərinin əvvəllərində Polşada "Həmrəylik" təşkilatının demokratiya uğrunda apardığı mübarizə bütövlükdə sosializm düşərgəsində ziddiyyətlərin dərinləşməsinə güclü təsir göstərmişdi. Latın Amerikası, Cənub-Şərqi Asiya və Afrika ölkələ-

rində Moskvanın təsirinin zəifləməsini ümumilikdə SSRİ-nin xarici siyasətinin uğursuzluğu kimi qiymətləndirmək olar.

Bütün qeyd olunanlarla yanaşı, ABŞ tərəfindən kosmosun hərbiləşdirilməsi proqramının irəli sürülməsi və SSRİ-ni irimiqyaslı vəsaitlər xərcləməklə cavab tədbirləri görməyə vadar etməsi avtarkiya prinsipinə əsaslanan sovet iqtisadiyyatını tamamilə taqətdən salmışdı. XX əsrin 70-80-ci illərində ABŞ-da yalnız kosmik hərbi proqramların həyata keçirilməsinə təxminən 50 milyard dollar vəsait xərclənmişdi (5, 319), SSRİ-nin isə buna adekvat cavab vermək imkanları məhdud idi.

1982-ci ilin noyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş Katibi, 76 yaşlı L.İ.Brejnevin vəfatından sonra, onu 1967-1982-ci illərdə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri işləmiş Y.V.Andropov əvəz etdi. 1984-cü ilin fevralında, cəmi 14 ay hakimiyyətdə olmuş Y.V.Andropovun vəfatından sonra onun yerini tutmuş K.U. Çernenko isə 1985-ci ilin martında vəfat etdi və bundan sonra SSRİ-də hakimiyyətə M.S.Qorbaçov gəldi.

M.S.Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş Katibi seçilməsi ilə SSRİ tarixinin yeni, kifayət qədər ziddiyyətli bir dövrü başlandı. Yeni rəhbərliyin elan etdiyi yenidənqurma siyasəti cəmiyyətin müəyyən qədər fəallaşmasına, müxtəlif istiqamətli təşkilatların meydana gəlməsinə səbəb oldu. İlkin olaraq ölkənin iqtisadi geriliyini aradan qaldırmaq planlaşdırılırdı. M.S.Qorbaçovun volyuntarist xarakterli sürətləndirmə strategiyası iqtisadiyyata, xüsusilə də ağır sənaye sahələrinə kapital qoyuluşunun artırılmasını, yeni texnologiyaların tətbiqini, istehsal müəssisələrini özünümaliyyələşdirmə prinsipinə keçirilməsini, onlara müəyyən qədər sərbəstlik verilməsini nəzərdə tuturdu, lakin aparılan siyasət nəinki gözlənilən nəticələri vermədi, əksinə, SSRİ-də sosial-iqtisadi böhranın daha da dərinləşməsi ilə nəticələndi. Bu, bir neçə səbəb ilə əlaqədar idi. Hər şeydən əvvəl, həyata keçirilən siyasətin qeyri-müəyyənliyini, qarşıya qoyulan məqsədlərə çatmaq üçün kifayət qədər maliyyə resurslarının olmamasını, ölkə büdcəsinin kəsrlə yerinə yetirilməsini qeyd etmək lazımdır.

Yenidənqurmanın birinci ilində, yəni 1985-ci ildə büdcənin gəlirlər hissəsi 372,8 milyard manata bərabər idisə, onun xərclər hissəsi 385,6 milyard manat təşkil etmişdi. Gəlirlərlə xərclər arasındakı fərq sonrakı illərdə daha da artmışdı. 1986-cı ildə büdcənin gəlirləri əvvəlki il ilə müqayisədə azalaraq 6 milyard manata düşdüyü halda, xərclər artaraq 417,1 milyard manatsa qalxmış və büdcə kəsri 45,5 milyard manat təşkil etmişdi. 1987-ci ildə büdcə gəlirləri 378,9 milyard, xərcləri isə 430,9 milyard manata, büdcə kəsri isə 52 milyard manata bərabər olmuşdu. 1988-ci ildə büdcənin gəlirləri əvvəlki il ilə müqayisədə cəmi 0,5 milyard manat artdığı halda, xərcləri təxminən 30 milyard manat artmışdı. Alkoqolizmə qarşı mübarizə adı altında aparılan düşünülməmiş siyasət nəticəsində ölkə büdcəsi 1985-ci ildə təxminən 10 milyard, 1986-cı ildə 20 milyard, 1987-ci ildə isə 30 milyard manat gəlirdən məhrum olmuşdu. Dünyada neftin bir barrelinin qiyməti 1980-ci ildə orta hesabla təxminən 80

ABŞ dollarına, 1983-cü ildə 30 dollara bərabər idisə, 1985-ci ildə bu rəqəm 26 dollara, 1986-cı ildə 15 dollara, 1987-ci ildə isə 12 dollara qədər aşağı düşmüşdü. Neft qiymətlərinin aşağı düşməsi nəticəsində təkcə 1987-ci ildə SSRİ-nin valyuta gəlirləri 50 % azalmışdı (1, 95-97).

Dövlət mülkiyyətinin hakim olduğu bir şəraitdə İqtisadi islahatların aparılmasına cəhd edilməsi də uğursuzluğa gətirən səbəblərdən idi. İnfilyasiyanın sürətlə artması, sovet manatının dəyərdən düşməsi ölkənin maliyyə sistemini iflic vəziyyətinə gətirmişdi.

Yenidənqurma siyasətini iflasa düçar edən başqa səbəb, ölkədə köklü siyasi islahatların aparılmaması, Kommunist Partiyasının hakim mövqeyini hər vasitə ilə qoruyub saxlamaq istiqamətində atılmış uğursuz addımlar ilə bağlı idi. Siyasi azadlıqların tam təmin olunmadığı şəraitdə alternativ seçkilərin keçirilməsi, rəhbər vəzifəli şəxslərin gizli səsvermə yolu ilə seçilməsi, SSRİ Xalq Deputatları Qurultayı və SSRİ Ali Sovetindən ibarət ikipalatalı nümayəndəli orqanın yaradılması və s. addımlar formal xarakter daşıyır, siyasi dekorasiyadan əlavə heç bir əhəmiyyət kəsb etmirdi.

Demokratikləşdirmə, aşkarlıq, söz və mətbuat azadlığı kimi dəyərlərin bəyan olunmasına baxmayaraq, hakimiyyət onlardan özünün müəyyənləşdirdiyi çərçivədə istifadə etməyə çalışır, mövcud nöqsanların üzə çıxarılmasına deyil, keçmişin təftiş olunmasına, stalinizmin tənqidinə daha çox diqqət yetirirdi.

1990-cı ilin martında keçirilmiş SSRİ xalq deputatlarının növbədənkənar üçüncü qurultayı tərəfindən SSRİ Konstitusiyasına əlavələr edilməsi, prezidentlik institutunun yaradılması və M.S.Qorbaçovun SSRİ-nin birinci prezidenti seçilməsi ölkədəki mövcud vəziyyətə heç bir müsbət təsir göstərmədi.

Ümumiyyətlə, M.S.Qorbaçovun və onun komandasının qeyri-ardıcıl, düşünülməmiş siyasəti SSRİ-də formalaşmış sosializm sisteminin mahiyyətindən irəli gələn problemləri nəinki aradan qaldırmadı, əksinə onları daha da kəskinləşdirdi və qarşısıalınmaz bir səviyyəyə gətirdi ki, bu da öz növbəsində sistemin süqutunu sürətləndirirdi. M.S.Qorbaçova qarşı Rusiya Sovet Federativ Sosialist Respublikası Ali Sovetinin sədri B.N. Yeltsinin ətrafında güclü müxalifət formalaşmışdı. 1991-ci ilin iyununda B.N.Yeltsinin Rusiya Prezidenti seçilməsindən sonra SSRİ prezidenti ilə Rusiya prezidenti arasındakı siyasi mübarizə daha da kəskinləşdi. B.N.Yeltsinin siyasi kursunun əsasını SSRİ-nin mərkəzi hakimiyyət orqanlarına qarşı mübarizə təşkil edir, o, Rusiyanın suverenliyi ideyasını geniş təbliğ edirdi.

Suverenlik uğrunda mübarizə təkcə Rusiya Federasiyasını deyil, SSRİ-yə daxil olan respublikaların əksəriyyətini əhatə etmişdi. Bu mübarizə sovet cəmiyyətində doqma səviyyəsinə çatmış “sovet beynəlmiləlçiliyi”, “xalqlar dostluğu”, “sovet xalqlarının sarsılmaz ailəsi” kimi fikirlərin heç bir əsasının olmadığını gündəmə gətirdi. Siyasi hakimiyyətin zəifləməsi ilə ölkə ərazisində milli-etnik münaqişələrin meydana gəlməsi SSRİ-nin süni şəkildə, güc tətbiq etməklə, xalqların milli-tarixi xüsusiyyətləri və reallıqları nəzərə alınmadan yaradılmış bir dövlət olduğunu bir daha sübut edirdi. Respublikalarda milli

mənliyini dərk edən, milli ideyanın təbliği ilə məşğul olan ziyalı təbəqəsinin formalaşması müstəqillik və suverenlik uğrunda mübarizəni təşkilatlanmış şəkildə aparmağa imkan verirdi. SSRİ-də milli məsələnin son dərəcə həssaslığını, millətlərarası münasibətlərin ədalətli şəkildə tənzimlənməsi mexanizminin işlənib hazırlanmamasını nəzərə alan bəzi tədqiqatçılar sovet dövlətinin məhz milli ziddiyyətlər, münaqişələr nəticəsində dağılacağı fikrini irəli sürürdülər. Məsələn, tarixçi A.Amalrikin 1969-cu ildə yazdığı, lakin 1994-cü ildə geniş oxucu kütləsinə təqdim olunmuş məqaləsində SSRİ-nin 1984-cü ilədək süqut edəcəyi proqnozlaşdırılırdı (6, 642-675). Müəllif zaman baxımından səhv etsə də, nəticə etibarilə proseslərin gedişini uzaqgörənliklə söyləyə bilmişdi.

Yenidənqurma dövründə milli əsasda ilk münaqişə 1986-cı ilin dekabrında Qazaxıstanda baş vermişdi. Bu respublikaya 25 ildən çox rəhbərlik etmiş, milliyyətcə qazax olan D.Kunayevin dekabrın 16-da təqaüdə göndərilməsi və Rusiya Federasiyası Ulyanovsk Vilayət Partiya Komitəsinin birinci katibi, milliyyətcə rus Q.Kolbinin M.S.Qorbaçov tərəfindən onun yerinə təyin olunması respublikada birmənalı qarşılanmadı. Ziyalılar, tələbələr, fəhlələr və cəmiyyətin digər təbəqələri Q.Kolbinin respublikaya rəhbər təyin olunmasına qarşı çıxış etmiş, dekabrın 17-də Alma-Atada "Hər bir xalqa öz rəhbəri!", "Bizə qazax rəhbər lazımdır!", "Diktə etmək bəsdir" və s. şüarlar altında açıq etiraz nümayişi təşkil etmişdilər. Növbəti gün nümayişçılərə qarşı güc tətbiq edilmiş, etirazların yatırılması zamanı bir neçə nəfərin həlak olması haqqında məlumatlar yayılmış, 200 nəfərdən çox tələbə Qazaxıstan universitetindən xaric edilmişdi (1, 234-237).

1988-ci ilin fevralında Ermənistanın Azərbaycana qarşı ədalətsiz olaraq irəli sürdüyü ərazi iddiaları, tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağı ələ keçirmək cəhdləri və M.S.Qorbaçov başda olmaqla sovet rəhbərliyinin ermənipərəst mövqeyi Azərbaycan xalqını öz hüquqları uğrunda mübarizə aparmağa sövq etmişdi. Genişlənməkdə olan ümumxalq hərəkatının nəticəsi olaraq yaradılmış Azərbaycan Xalq Cəbhəsinin 1988-1989-cu illərdə təşkil etdiyi nümayiş və mitinqlərdə ərazi bütövlüyü, dövlət müstəqilliyi və suverenlik haqqında tələbləri əsas yer tuturdu. Qeyd edək ki, nəzərdən keçirilən dövrdə SSRİ-nin müsəlman respublikalarında, Azərbaycan Xalq Cəbhəsi istisna olmaqla, qarşısına dövlət müstəqilliyinə nail olmaq məqsədi qoyan hərəkat və ya partiya mövcud olmamışdı. SSRİ rəhbərliyi, azadlıqları uğrunda mübarizəyə qalxmış digər xalqlarla müqayisədə, Azərbaycan xalqı ilə daha sərt rəftar etdi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hərbi birləşmələri Azərbaycanın paytaxtı Bakı şəhərinə yeridildi, yaşından, cinsindən, milliyyətindən və dinindən aslı olmayaraq 131 nəfər günahsız insan öldürüldü, 744 nəfər yaralandı, 4 nəfər itkin düşdü, 400 nəfər həbs edildi (7, 280). Sonrakı günlərdə qanlı hadisələr Azərbaycanın bir sıra digər şəhərlərində davam etdirilsə də, Moskva Azərbaycan xalqının mübarizə əzmini qıra bilmədi. Məhz Bakıda və Azərbaycanın başqa şəhərlərində baş vermiş qanlı olaylara etiraz əlaməti olaraq, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Sovet Sosialist

Respublikası 1990-cı ilin yanvarında öz müstəqilliyini elan etdi və bununla da SSRİ-nin tərkibindən çıxdığını rəsmi olaraq bəyan etmiş ilk inzibati ərazi oldu.

Ümumiyyətlə, sovet rəhbərliyi xalqların getdikcə genişlənən azadlıq hərəkatının qarşısını almaq üçün respublikalarda separatizmi şirnikləndirir, separatçı qüvvələrə müxtəlif vasitələrlə yardım edirdi.

1989-cu ildə Abxaziyanın Gürcüstanın tərkibindən çıxaraq Rusiya Federasiyasına daxil olmaq cəhdləri Gürcüstanda gərginliyin yaranmasına səbəb olmuşdu. Gürcü-abxaz qarşıdurması ilə yanaşı, gürcü-osetin münaqişəsinin meydana gəlməsi Cənubi Qafqazın bu respublikasında vəziyəti daha da mürəkkəbləşdirdi. Moskva Gürcüstanın ərazi bütövlüyünün qorunması istiqamətində nəinki qəti addımlar atmadı, əksinə, rus sosioloqu A.Q. Zdravomıslovun sözləri ilə desək, “Ittifaq və Risiya rəhbərliyində bəzi dairələr bu münaqişədə maraqlı idilər” (8, 21-22).

1989-cu il aprelin 9-da Gürcüstanın paytaxtı Tbilisidə separatizmə qarşı təşkil olunmuş mitinqin sovet qoşunları tərəfindən dağıdılması zamanı, çoxu qadın olmaqla 20 nəfərədək mitinq iştirakçısı həlak olmuşdu (1, 281). Bu faciəli hadisədən sonra Gürcüstanda da SSRİ-nin tərkibindən çıxmaq və dövlət müstəqilliyi uğrunda mübarizə genişlənmişdi.

Pribaltika respublikalarında müstəqillik uğrunda mübarizənin getdikcə intensivləşməsi İttifaq rəhbərliyi üçün daha ciddi problemlər yaradırdı, çünki Litva, Latviya və Estoniyanın 1939-cu ildə SSRİ tərəfindən işğal olunması faktı təkcə bu respublikalarda deyil, həm də SSRİ-nin demokratik qüvvələri tərəfindən tanınırdı. Məhz bu fakt əsasında Estoniya və Latviyada Xalq Cəbhələri, Litvada isə “Sayudis” təşkilatı müstəqillik uğrunda mübarizəni daha dinc vasitələrlə, qanuni üsullarla, SSRİ-dən çıxmaq hüququ haqqında sovet Konstitusiyasının uyğun maddəsinə əsaslanaraq aparmağa üstünlük verirdilər (8, 24-28). Buna baxmayaraq, imperiya ambisiyalarından imtina etmək istəməyən Kreml Pribaltikada da güc tətbiq etmiş, qan tökmüşdü. 1991-ci il yanvarın 12-də Vilnüsdə Litva televiziyasının binasının sovet hərbçiləri tərəfindən ələ keçirilməsi zamanı 16 nəfər öldürülmüşdü (2, 467).

Yenidənqurma dövründə milli qarşıdurmanın baş verdiyi respublikalardan biri də Moldova idi. Moldova Xalq Cəbhəsi moldovanları rumınların bir hissəsi hesab edərək, Moldovanın Rumıniya ilə birləşməsi ideyasını təbliğ edirdi (1, 291). Belə mövqe Moldovanın türkdilli əhalisi olan qaqauzların və Dnestr çayından şərqdə yaşayan slavyan əhalinin (ruslar və ukraynalıların) narazılığına səbəb olmuşdu. Qaqauzlarla moldovanlar arasındakı qarşıdurma geniş silahlı toqquşma səviyyəsinə çatmasa da, Kremlin himayə etdiyi slavyan əhali separatçılıq yolunu tutaraq Kişinyova tabe olmaqdan imtina etmiş, bu da tərəflər arasında çoxsaylı itkilərlə müşayət olunmuş hərbi əməliyyatların baş verməsinə gətirib çıxarmışdı.

1988-1990-cı illərdə milli zəmində qarşıdurma və toqquşmalar digər sovet respublikalarında da baş vermişdi. Bu daha çox İkinci dünya müharibəsi zamanı İ.V.Stalin tərəfindən deportasiya olunmuş xalqlarla bağlı idi. 1990-cı

ildə Özbəkistanın Fərqanə vadisində özbəklərlə Gürcüstandan bura köçürülmüş məshət türkləri arasında qanlı toqquşmalar baş verdi. Orta Asiya və Qazaxıstana köçürülmüş krım tatarlarının vətənlərinə, Krıma qayıtmaları burada məskunlaşmış rusların müqaviməti ilə üzləşdi. Digər bir qarşıdurma halı Şimali Osetiyada osetinlərlə geri qayıtmış inquşlar arasında baş vermişdi. Rusiya Federasiyasının subyektləri olan Tatarıstan və Çeçen-İnquşetiya 1990-cı ildə öz suverenliklərini elan etdilər, lakin mərkəzi hakimiyyət orqanları onların suverenliyini tanımaqdan imtina etdi. Sonradan Rusiya rəhbərliyi Tatarıstanla münasibətləri danışıqlar vasitəsilə tənzimləməyə nail olsa da, Çeçenistanda vəziyyət xeyli kəskinləşmiş və uzun sürən müharibəyə səbəb olmuşdu.

SSRİ-də mərkəzdənqaçma meyllərinin güclənməsinə, Şərqi Avropada baş vermiş "məxməri inqilablar" nəticəsində sovet blokunun dağılması da müəyyən təsir göstərmişdi. 1989-cu ilin iyununda Polşada keçirilmiş parlament seçkilərində Polşa Kommunist Partiyasına müxalifətdə olan "Həmrəylik" təşkilatı qalib gəldi, ölkədə prezidentlik institutu yaradıldı və 1990-cı ilin dekabrında baş tutmuş prezident seçkiləri nəticəsində qeyd olunan təşkilatın rəhbəri L.Valensa Polşanın birinci prezidenti oldu.

1989-cu il noyabrın 9-da Berlin divarının dağıdılması və 1990-cı il oktyabrın 3-də AFR və ADR-in birləşmə prossesinin sona çatması Avropada yeni siyasi mühit yaratmaqla yanaşı, dünya sosializm sisteminə, o cümlədən SSRİ-nin beynəlxalq nüfuzuna ciddi zərbə vurdu.

1989-1990-cı illərdə Macarıstan, Çexoslovakiya, Rumıniya və Bolqarıstanda da kommunist rejimləri iflasa uğradı. Bununla yanaşı, SSRİ-nin rəhbərliyi altında yaradılmış və fəaliyyət göstərmiş, yalnız sosialist ölkələrinin daxil olduqları Varşava Müqaviləsi Təşkilatı və Qarşılıqlı İqtisadi Yardım Şurasının mövcudluğuna son qoyuldu, Moskva öz qoşunlarını və hərbi texnikasını Şərqi Avropa ölkələrindən çıxarmaq məcburiyyətində qaldı.

Bütün qeyd olunanların nəticəsi olaraq SSRİ-nin daxilində baş verən siyasi proseslər getdikcə Kremlin nəzarətindən çıxmış, İttifaq dövlətinin mövcudluğunun özü sual altına düşmüşdü. 1990-cı il martın 11-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Kommunist Partiyasının sovet idarəetmə sistemindəki hakim mövqeyi haqqında SSRİ Konstitusiyasının 6-cı maddəsi ləğv edildi. Bunun ardınca müttəfiq respublikalarda mühafizəkar mövqedə duran kommunistlərin nüfuzu və prosseslərə təsir imkanları xeyli zəiflədi, əvəzində liberal və millətçi baxışlı insanlar hakimiyyət orqanlarında əsas qüvvəyə çevrildilər.

1990-cı il SSRİ tarixində "suverenitetlər paradı" kimi yadda qaldı. Qeyd olunan ilin sonunadək bütün müttəfiq respublikaların Ali Sovetləri öz suverenlikləri haqqında bəyanatlar qəbul etdilər. Respublika qanunlarının ittifaq qanunları üzərindəki üstünlüyü ideyası, mərkəzi hakimiyyət orqanlarına etimadsızlıq, ərazilərindəki resurslar və onlardan istifadə üzərində yerli orqanların nəzarətini yaratmaq, respublikaların idarəetmə strukturlarına milli kadrları irəli çəkmək kimi məqamlar bu bəyanatların əsas məzmununu təşkil edirdi.

M.S.Qorbaçov SSRİ-nin tam dağılmasının qarşısını almaq məqsədilə, SSRİ Ali Sovetinin 1990-cı il 17 noyabr tarixli iclasında unitar dövlət olan SSRİ-nin əvəzinə yeniləşmiş ittifaq müqaviləsi imzalamaq, bu müqavilənin imzalanmasına qədər respublikaların hakimiyyət orqanlarının qəbul etdikləri bütün qərarların dondurulması təklifi ilə çıxış etdi. Müttəfiq respublikaların əksəriyyətinin rəhbər xadimləri SSRİ prezidentinin bu təklifinə münasibət bildirərək respublikalarının suverenlikdən imtina etmək fikrində olmadıqlarını bildirmişdilər. Rusiya Federasiyasının rəhbəri B. Yeltsin qeyd olunan məsələyə qeyri-ciddi yanaşaraq, təklifin irəli sürüldüyü iclasda ümumiyyətlə iştirak etməmişdi. Ukrayna Nazirlər Sovetinin sədri V.Fokin təklifə münasibət bildirərək bəyan etmişdi: "Hamı bilməlidir ki, suverenlik haqqında bəyanatlar yenidənqurma zəminində və onun ideyalarının inkişafı prossesində meydana gəlmişdir. Öz övladlarından imtina etmək günahdır". Eyni mövqedən çıxış edən Belorusiya Nazirlər Sovetinin sədri V.Kebiç bildirirdi: "Bu gün biz İttifaqımızı saxlamaq haqqında danışırıq, nəyi saxlamaq lazımdır? Etiraf edirik: İttifaq yalnız konstitusiya ilə mövcuddur... Həqiqətin gözünə baxmaq lazımdır. Bu gün heç bir respublika öz suverenliyini güzəştə getməyəcək". Azərbaycan Ali Sovetinin sədri E.Qafarovanın məsələyə münasibəti belə olmuşdu: "... bu gün SSR İttifaqı sanki vardır, eyni zamanda o, yoxdur... Milli respublikaların müstəqillik ənənəsi artıq reallıqdır". Gürcüstan Ali Sovetinin sədri A.Asatiani respublikasının artıq Sovet İttifaqının tərkibində olmadığını və İttifaq müqaviləsini imzalamayacağını bəyan etmişdi. Digər müttəfiq respublikaların, hətta bu respublikaların tərkibində olan muxtar respublikaların nümayəndələri də oxşar bəyanatlarla çıxış etmişdilər (8, 43-47).

1990-cı ilin dekabrında SSRİ xalq deputatlarının dördüncü qurultayında İttifaq dövlətinin taleyini ümumxalq referendumunda həll etmək haqqında qərar qəbul edildi. SSRİ Ali Sovetinin 1991-ci il yanvarın 16-da qəbul etdiyi qərar ilə referendumu həmin ilin mart ayının 17-də keçirmək qərara alındı. Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan və Ermənistan referendumda iştirak etməkdən imtina etdilər.

Rəsmi elan olunmuş məlumatlara görə, 17 mart referendumunda səsvermə üçün adları siyahıya daxil edilənlərin 80%-i iştirak etmiş və onların 76 %-i SSRİ-nin saxlanılmasının lehinə səs vermişdi. Rusiya Federasiyasında əhalinin 75,4%-i referendumda iştirak etmiş və onların 71%-i İttifaq dövlətinin saxlanılmasına "hə" demişdi. Referendumda iştirak etmiş digər respublikalarda uyğun göstəricilər aşağıdakı kimi olmuşdu: Ukraynada 83% və 70%, Belorusiyada 83% və 83%, Özbəkistanda 95% və 93,7%, Qazaxıstanda 89% və 94%, Azərbaycanda 75% və 93%, Qırğızıstanda 93% və 94,5%, Tacikistanda 94% və 96%, Türkmənistanda 97,7% və 98% (1, 436).

Göründüyü kimi, istər referendumda iştirak edənlər, istərsə də SSRİ-nin saxlanılmasına müsbət cavab verənlər baxımından ən yüksək göstəricilər, sosial-iqtisadi inkişaf və demokratik dəyərlərin yayılması səviyyəsinə görə digər respublikalardan müəyyən qədər geri qalan Qazaxıstan və Orta Asiya respublu-

kalarının payına düşür.

Suveren Respublikalar İttifaqı haqqında müqavilənin ilkin layihəsi 1991-ci il martın 9-da mətbuatda dərc olundu. Sonradan bu layihə bir neçə dəfə dəyişdirilmiş və qeyd olunan il iyunun 17-də M.S.Qorbaçov layihənin son variantını imzalayaraq 17 mart referendumunda iştirak etmiş 9 respublikanın Ali Sovetlərinə göndərmişdi. İyulun 23-də müqavilə layihəsinin hazırlandığı Novo-Oqaryovoda SSRİ-nin, müttəfiq və muxtar respublikaların əksəriyyətinin rəhbərlərinin iştirakı ilə geniş iclas keçirildi, ittifaq vergi və rüsumları haqqında bölmə istisna olmaqla, yerdə qalan bütün məsələlər razılaşdırıldı. İyulun 29-da, yenə də Novo-Oqaryovoda M. Qorbaçov, B.Yeltsin və N.Nazarbayev arasında gizli görüş keçirilmiş və yeni İttifaq müqaviləsini avqustun 20-də imzalamaq, bundan sonra DTK sədri Kryuçkovu, müdafiə naziri Yazovu, daxili işlər naziri Puqonu və baş nazir Pavlovu vəzifələrindən uzaqlaşdırmaq və sonuncunun yerinə N. Nazarbayevi təyin etmək haqqında razılıq əldə olunmuşdu. Novo-Oqaryovo görüşünün gizli şəraitdə keçirilməsinə baxmayaraq, DTK əməkdaşları xüsusi dinləmə vasitələri ilə danışıqların məzmunu haqqında məlumat əldə edə bilmişdilər və B.N.Yeltsinin fikrincə, bu amil 1991-ci ilin avqust hadisələrinə gətirən səbəblərdən ola bilərdi (1, 460-466) .

SSRİ-nin süqutunun qarşısını almaq, ölkə həyatının bütün sahələri üzərində dövlət nəzarətini gücləndirmək məqsədilə mühafizəkar baxışlı bir qrup yüksək vəzifəli dövlət xadimi, tarixə “avqust qiyamı” kimi daxil olmuş dövlət çevrilişinə cəhd etdi. SSRİ-nin vitse-prezidenti Q.İ.Yanayev “Mixail Sergeyeviç Qorbaçovun səhhəti ilə əlaqədar SSRİ prezidentinin səlahiyyətlərini yerinə yetirə bilməməsi ilə bağlı olaraq və SSRİ Konstitusiyasının $127^{7}$ maddəsinə əsasən” 1991-ci il avqustun 18-də imzaladığı fərmanı ilə 1991-ci il avqustun 19-dan SSRİ prezidentinin səlahiyyətlrini öz üzərinə götürdü. Eyni zamanda, sovet rəhbərliyi adından verilmiş bəyanatda avqustun 19-dan başlayaraq 6 ay müddətinə SSRİ-nin ayrı-ayrı yerlərində fövqəladə vəziyyət elan olunduğu və bunu həyata keçirmək üçün SSRİ Müdafiə Şurası sədrinin birinci müavini O.D.Baklanov, SSRİ DTK-nın sədri V.A.Kryuçkov, SSRİ baş naziri V.S.Pavlov, SSRİ daxili işlər naziri B.K. Puqo, SSRİ Kəndli İttifaqının sədri V.A.Stradubtsev, SSRİ Sənaye, Tikinti, Nəqliyyat və Rabitə Dövlət Müəssisələri və Obyektləri Assosiasiyasının prezidenti A.İ.Tizyakov, SSRİ müdafiə naziri D.T.Azov və SSRİ prezidentinin səlahiyyətlərini yerinə yetirən Q.İ.Yanayevin daxil olduqları Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin yaradıldığı bildirildi (9, 18-20).

Cəmiyyətin əsas hissəsinin və ordunun qiyamçıları deyil, onlara qarşı effektiv müqaviməti təşkil edə bilmiş Rusiya prezidenti B.N. Yeltsini müdafiə etməsi dövlət çevrilişi planının iflasa uğraması ilə nəticələndi.

Avqust hadisələri nəticəsində, M.S. Qorbaçovun irəli sürdüyü yeni İttifaq müqaviləsi ideyası da öz aktuallığını itirdi, çünki bu hadisələrdən sonra SSRİ-nin süqutu məsələsi gündəlikdə duran məsələyə çevrilmişdi. M.S.Qorbaçovun əsas siyasi opponenti olan B.N.Yeltsinin nüfuzunun və prosseslərə təsir

gücünün daha da artması nəticəsində birincinin ölkənin siyasi həyatındakı rolu sıfıra enmişdi.

1991-ci il avqustun 19-na qədər cəmi iki respublika – Litva və Gürcüstan - öz müstəqilliklərini elan etmişdisə, bundan sonra digər respublikalar da eyni addımı atdılar və faktiki olaraq SSRİ adlı dövlətin varlığına son qoydular.

Rusiya, Belorusiya və Ukrayna rəhbərləri B.Yeltsin, S.Şuşkeviç və L.Kravçuk 1991-ci il dekabrın 7-8-də Minsk yaxınlığındakı Belovej meşəsindəki Viskuli iqamətgahında keçirdikləri görüşdə SSRİ-nin beynəlxalq hüququn subyekti və geosiyasi reallıq kimi mövcudluğuna son qoyulduğunu bəyan etdilər və təmsil etdikləri dövlətlərdən ibarət Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında razılaşma imzaladılar. Pribaltika respublikalarının və Gürcüstanın rəhbərləri istisna olmaqla, 11 keçmiş sovet respublikasının prezidentlərinin dekabrın 21-də Qazaxıstanın paytaxtı Alma-Atada keçirilmiş görüşlərində Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızıstan, Moldova və Ermənistanın da MDB-yə qoşulmaları haqqında bəyannamə imzalandı. Gürcüstan prezidenti Z.Qamsaxurdiya ölkəsində başlamış vətəndaş müharibəsi səbəbindən Alma-Ata görüşündə iştirak edə bilməmişdi. Dekabrın 25-də SSRİ-nin birinci və sonuncu prezidenti M.S.Qorbaçovun bəyanat verərək səlahiyyətlərindən imtina etməsi ilə 70 ildən çox bir dövrdə mövcud olmuş sovet dövləti tarix səhnəsindən çıxmış oldu (1, 564-575).

SSRİ-nin süqutu on beş yeni müstəqil dövlətin dünya birliyinə daxil olması ilə nəticələndi. Bu isə, öz növbəsində təkcə keçmiş SSRİ məkanında deyil, bütün dünyada qüvvələr nisbətinə, sosial-iqtisadi, siyasi və mədəni prosseslərə birbaşa təsir göstərən vəziyyətin yaranmasına gətirib çıxardı.

**ƏDƏBİYYAT**


1. Медведев Р.Советский Союз. Последние годы жизни. Конец советской империи. М.: АСТ: АСТ МОСКВА: Полиграфиздат, 2010, 637 с.
2. Верт Н. История советского государства. 1900-1991. Пер. с фр. М.: Прогресс: Прогресс-Академия. 1992, 479 с.
3. Салуцкий А.С. Пророки и пороки: «Поп-наука» в зеркале реальности. М.: Молодая гвардия, 1990, 222 с.
4. Доган М. Легитимность режимов и кризис доверия // Социологические исследования. 1994, № 6, с. 147-156
5. Протопопов А.С., Козьменко В.М., Елманова Н.С. История международных отношений и внешней политики России (1648-2000). М.: Аспект Пресс, 2003, 344 с.
6. Амальрик А. Просуществует ли Советский Союз до 1984 года? // Погружение в трясину: Анатомия застоя. М., 1991, с. 643-683
7. Azərbaycan tarixi. 7 clddə. VII c., Bakı: Elm, 2003, 608 s.
8. Здравомыслов А.Г. Межнациональные конфликты в постсоветском пространстве. М.: Аспект Пресс, 1999, 286 с.
9. Август-91. М.: Политиздат, 1991, 272 с.

## О ПРОЦЕССЕ РАСПАДА СССР

**А.Ш. ШАХМУРАДОВ**

**РЕЗЮМЕ**

В 80-х годах XX века СССР погрузился в социально-экономический и политический кризис. В марте 1985 года М.С.Горбачев был избран главой Советского Союза и его волюнтаристская политика еще более углубила кризис. Возникли напряженность и противоречия между народами, входившими в СССР, в некоторых регионах имели место вооруженные столкновения. Проект нового союзного договора, инициированный М.С.Горбачевым для спасения СССР и августовский путч консервативных сил в 1991 г. не увенчались успехом. 8 декабря 1991 г. лидеры России, Украины и Белоруссии объявили о создании Содружества Независимых Государств и, таким образом, был положен конец существованию СССР.

**Ключевые слова:** Советский Союз, М.С.Горбачев, национальные конфликты, Новый Союзный Договор, Содружество Независимых Государств

## THE COLLAPSE PROCESS OF THE USSR

**A.Sh. SHAKHMURADOV**

**SUMMARY**

In the 80s of the XX century, the Soviet Union faced a socio-economic and political crisis. In March 1985, M.S.Gorbachev was elected the new leader of the Soviet Union and his voluntaristic policy deepened the crisis. Tensions and conflicts between nations of the USSR increased, in some regions there were armed clashes. The draft of the New Union Treaty, initiated by M.S.Gorbachev for the salvation of the Soviet Union, and August 1991 coup attempt by conservative forces were not successful. On December 8, 1991, the leaders of Russia, Ukraine and Belorussia announced the establishment of the Commonwealth of Independent States, and thus put an end to the existence of the USSR.

**Key words:** Soviet Union, M.S.Gorbachev, national conflicts, New Union Treaty, Commonwealth of Independent States